(Əvvəli 3-cü səhifədə).

# Multikulturalizm bizim yaşayış tərzimizdir

Ulu öndərin dediyi kimi həqiqətən də Azərbaycan ərazisində yaşayan ləzgilər, avarlar, kürdlər, talışlar, udilər, kumıklar və digər xalqların nümayəndələri bütünlükdə hamısı azərbaycanlıdır. Biz Azərbaycanda yaşayan bütün xalqlar bir yerdə, azərbaycanlı olaraq dünya üçün maraq kəsb edə bilərik.

Ümummilli lider Heydər Əliyevin rəhbərliyi altında Azərbaycan xalqının multikultural ənənələrinin qorunması və inkişaf etdirilməsi bünövrəsində əsası qoyulmuş siyasi istiqamət yeni mərhələdə də uğurla inkişaf etdirilir. 2016-cı ilin "Multikulturalizm ili" elan edilməsi bunun bariz nümunəsidir. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev multikulturalizmi dövlət siyasəti elan edib. Multikulturalizm eyni bir ölkədə yaşayan müxtəlif xalqların nümayəndələrinin mədəni hüquqlaını tanıyan və ona hörmət edən humanist dünyagörüşü və ona uyğun olan siyasətdir. O, ölkədə və bütövlükdə dünyada müxtəlif millətlərə və məzhəblərə məxsus insanların mədəni müxtəlifliyinin qorunması və inkişafı, azsaylı xalqların dövlətlərin ümummilli mədəniyyətinə inteqrasiyasına yönəldilib. Bu baxımdan Azərbaycan multikulturalizmin ən yaxşı modelidir. Multikulturalizmdən imtina isə bütün dünyada getdikcə artan millətlərarası anlaşılmazlığa, qarşıdurmaya, milli və dini münaqişələrə aparan yoldur. Azərbaycan həmişə müxtəlif etnosların nümayəndələrinin mədəniyyətləri və dinlərinin inteqrasiya məkanı olub. Müsəlman, xristian və yəhudi dininə mənsub əhali arasındakı tolerant və dostluq münasibətləri Azərbaycanımız üçün hər zaman xarakterik olub.

Azərbaycanda ölkənin mədəniyyətinə müvəffəqiyyətlə inteqrasiya olan müxtəlif xalqların nümayəndələri harmonik inkişaf edirlər. Uzun illərdir ölkəmizdə müxtəlif millətərə mənsub insanların birgə yaşayış şəraitində tolerant həyat tərzi mövcuddur. Ölkədə həmişə azsaylı xalqlara, onların milli-mənəvi dəyərlərinə, adət-ənənələrinə hörmətlə yanaşılır. Bu gün



doğma Azərbaycanımızda müxtəlif millətlərin, dinlərin və mədəniyyətlərin inkişafı və möhkəmləndirilməsi üçün bütün zəruri siyasi və social şərait yaradılıb. Hər bir millətin nümayəndəsi ölkəmizdə sərbəst yaşayır, öz adət-ənənələrini, dinini, dilini qoruyub saxlayır, inkişaf etdirir. Azərbaycan tolerantlıq ölkəsi kimi Şərq və Qərb arasında böyük körpü rolunu oynayır. Çoxmillətli ölkəmizdə azərbaycanlıarla yanaşı ruslar, ləzgilər, talışlar, gürcülər, avarlar və digər etnik azlıqlar əsrlər boyu mehriban dostluq şəraitində yaşayırlar. Xınalıqda, Lahıcda yaşayan özünəməxsus dilləri, adət-ənənələri olan azsaylı xalqlar da əsrlər boyu Azərbaycanda yaşayan digər xalqlarla dostluq münasibəti saxlamış, adət-ənənələri qarşılıqlı surətdə bir-birinə qaynayıb qarışmışdır.

Ölkəmizin zəngin tarixə malık azsaylı xalqlarından biri də udilərdir. Udilər Qafqazın qədim sakinlərindəndirlər. Tarixən Günəşə, Aya, Oda sitayiş edən udilər Qafqazda xristianlığı ilk qəbul edən etnoslardan biridir. Hazırda kompakt şəkildə Qəbələ rayonunun Nic qəsəbəsində və qismən də Oğuz rayonunun mərkəzində yaşayırlar. Bu gün Nic qəsəbəsini tolerantlığın kiçik modeli kimi qəbul etmək olar. Burada tarix boyu azərbaycanlılar, ləzgilər, udilər mehriban şəraitdə, bir yerdə yaşayıblar. Qəsəbədə üç kilsə, iki məscid, xristianların və müsəlmanların ziyarət etdikləri müqəddəs yerlər var. Dövlət tərəfindən udilərə öz dilini, dinini, adət-ənənələrini, mədəniyyətlərini qoruyub saxlamaq və inkişaf etdirmək üçün hər cür şərait yaradılmışdır. Məktəblərdə udilərin ana dili də tədris olunur, uşaqlar bu dildə yazmağı və oxumağı öyrənir. Dövlət tərəfindən göstərilən qayğının nəticəsidir ki, I-IV siniflər üçün udi dilində ana dili dərslikləri çap olunmuşdur. Qəsəbədə yaşayan bütün xalqların nümayəndələri mehriban dostluq şəraitində, bir ailə kimi yaşayır. Çətin günlərdə Azərbaycanda yaşayan hər bir millət biri digərinə qarşı maddi və mənəvi dayaq olur. Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevanın sözləri ilə desək "Öz mədəniyyətinə, öz tarixinə, öz ənənələrinə, öz adətlərinə hörmətlə yanaşan xalq, gərək eyni şəkildə fərqli mədəniyyətlərə də, fərqli tarixə də hörmətlə yanaşsın."

Biz öz həyat tərzimizlə sübut edirik ki, multikulturalizm Azərbaycanda yalnız dövlət siyasəti deyil, həmçinin bizim xalqın gündəlik yaşayış tərzidir.

## Fındıq və tut tingləri əkilir

***Seyidqışlaqlılar çalışqan, qoçaq, öz zəhmətinə güvənən və daşdan çörək çıxarmağı bacaran insanlardır. Onlar dövlətin qayğısı, əllərinin zəhməti ilə doğma yurd yerlərini bağlı-bagatlı məkana çeviriblər. Hər bir seyidqışlaqlı üçün bu kəndin ən xırda daşı da, adi bir yarpağı da qızıləhmədi alması, nararmudu, qozu, fındığı qədər qiymətlidir. Ona görə ki, minlərlə insan bu torpağın sinəsində yetişdirdiyi dadlı-ləziz məhsulların hesabına ailəsini dolandırır, heç kimə möhtac olmur.***

Seyidqışlaq kəndində ilin bütün fəsillərində qızğın iş gedir. Hamı əkinlə, biçinlə, tərəvəzlə, bağ salmaqla, mövcud bağları becərməklə, mal-qara saxlamaqla məşğul olur.

Möhtərəm cənab Prezidentimiz İlham Əliyevin fındıqçılığı və baramaçılığı inkişaf etdirmək üçün verdiyi tapşırıq və göstərişlər seyidqışlaqlıların üreyincə olmuşdur. İndi onlar fındıq bağlarının genişləndirilməsinə və baramaçılığın yem bazasının yaradılması kampaniyasına başlamışlar. Qısa zaman kəsiyində kənd camaatı 1 hektar sahədə 300 ədəddən çox fındıq tingi, 200 ədədə yaxın tut tingi əkmişdir. Hazırda onlar hər iki növdən olan tinglərin əkinini davam etdirir. Kənd sakinləri mövsümdə daha 1000 ədəd fındıq və 1000 ədədə yaxın tut tingi əkməyi qərara almışlar.

***«Qəbələ».***

## 837 nəfər işlə təmin edilib

***Qəbələ rayonunda işsiz vətəndaşların məşğulluğunun təmin edilməsi daim diqqət mərkəzində saxlanılır. Rayon məşğulluq mərkəzi idarə və təşkilatlarla, istehsal müəssisələri və turizm obyektləri ilə sıx əməkdaşlıq edərək boş iş yerləri barədə daim məlumatlar toplayır və işə düzəlməkdə çətinlik çəkən vətəndaşların məşğulluğunun təmin olunmasına kömək edir.***

Mərkəz cari ilin əvvəlindən indiyədək 3182 nəfəri işaxtaran kimi qeydiyyata alıb. Onlardan 837 nəfər ixtisasına və istəyinə uyğun işlə təmin edilib. Vətəndaşlar əsasən sənaye, təhsil və səhiyyə müəssisələrində, xidmət təşkilatlarında, tikinti sahələrində, turizm obyektlərində işlə təmin olunublar. İl ərzində mərkəz tərəfindən 27 nəfərə işsizlik statusu verilib, 32 işsiz vətəndaşa müavinət təyin edilib. İşaxtaranlardan 17 nəfər isə sahibkarlıqla bağlı peşə kursuna cəlb edilib.

Qeyd edək ki, 2003-cü ilin oktyabr ayından indiyə qədər Qəbələ rayonunda 14493 yeni iş yeri açılıb ki, bunun da 12445-i daimi iş yeridir. Cari ilin 10 ayı ərzində isə rayonda açılan yeni iş yerlərinin sayı 821 olub. Həmin iş yerlərinin hamısı daimi iş yeridir.

***"Qəbələ".***

## Redaksiyaya məktub

## Savadlı, intellektual şagird yetişdirmək zamanın tələbidir

***Hörmətli redaksiya, 2 məktəbli övladım var. Nicat Apayev adına Qəbələ şəhər 4 nömrəli tam orta məktəbində təhsil alırlar. Hicran II sinifdə, Əminəxanım isə IV sinifdə oxuyur. Müəllimləri Sara Soltanzadə və Aybəniz Həsənova ilə bir valideyn kimi vaxtaşırı görüşürəm. Dərs dedikləri siniflərin uşaqlarına necə diqqətlə, həssaslıqla, səmimi yanaşdıqlarının şahidi oluram. Uşaqlar da müəllimlərini çox sevirlər. Bu məni çox sevindirir.***

IV sinif müəllimi Aybəniz Həsənovanın sinfində 24 nəfər şagird təhsil alır.19 nəfəri «əla» və «yaxşı» qiymətlərlə oxuyur. Onun 30 illik pedaqoji stajı var. Qabaqcıl və fəal müəllim kimi məktəb rəhbərliyinin təşəkkürlərinə, 2 dəfə isə rayon təhsil şöbəsinin fəxri fərmanına layiq görülüb. Aybəniz Həsənova deyir ki, mən o vaxtlar pedaqoji institutu bitirib sinif müəllimi kimi indi işlədiyim məktəbə təyinat almışdım. Burada təcrübəli məktəb rəhbərlərinə, sinif müəllimlərinə rast gəldim. Onların mənə verdikləri məsləhətləri və tövsiyələri bu gün də unutmuram. Təhsildə əldə etdiyim uğurlara görə onlara minnətdaram. Həqiqət də budur ki, əgər bir sinifdə 2 və ya 3 nəfər yaxşı oxuyan uşaq varsa bu, onların öz istedadlarıdır. Lakin sinif şagirdlərinin çoxu yaxşı oxuyursa bu, müəllimin savadının, pedaqoji ustalığının, təcrübəsinin bəhrəsidir.

Yuxarıda adlarını çəkdiyim müəllimlər də çalışırlar ki, yetişdirdikləri uşaqlar təkcə savadla kifayətlənməsinlər, onlar daim inkişafda olan, tərəqqi edən müstəqil respublikamıza layiq intellektual, geniş dünyagörüşlü, əsil vətənpərvər insanlar kimi yetişsinlər. Əlbəttə bu, zamanın, qloballaşan dünyamızın tələbidir. Bax, məncə əsil sənət sahibləri, əsil savadlı müəllimlər də belələridir. Biz valideynlər belə müəllimlərlə, sənət sahibləri ilə fəxr edirik. Fəxr edirik ki, övladlarımız etibarlı əllərdədir.

**✍Sevinc XƏLİLOVA.**

## Yeniyetmələr arasında şahmat üzrə rayon birinciliyi

***Gənclər və idman idarəsi tərəfindən 31 Dekabr–Dünya Azərbaycanlılarının Həmrəyliyi Gününə həsr olunmuş şahmat üzrə rayon birinciliyi keçirilmişdir. Yarışın keçirilməsində məqsəd şahmat idman növünün kütləviliyini təmin etmək, yarış iştirakçılarının idman ustalıqlarının artırılması idi.***

Birinciliyin açılış mərasimində rayon gənclər və idman idarəsinin rəisi Fəxri Soltanov 31 Dekabr–Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il münasibətilə idmançıları təbrik edərək onlara uğurlar arzuladı.

Yarışlarda 8-10-12-14 və 16 yaş qruplarında 60-a qədər oğlan və qız dairəvi sistem üzrə mübarizə aparmışlar.

Birinciliyin yekununa əsasən oğlanlar arsında Sabir Sadıqov, Ümid Abdulkərimli, Xəzər Bəşirli, Nurlan Hümbətli, Sabir Abdullayev və qızlar arsında isə Selcan Eyyubova, Güllər Bağırova, Güllər Əlicanova, Aynur Alməmmədova birinci yerə layiq görülmüşlər.

Hər yaş qrupunda I, II və III yeri tutan qaliblərə rayon gənclər və idman idarəsinin diplomları təqdim edilmişdir.

**✍Elçin OSMANOV, gənclər və idman idarəsinin aparıcı məsləhətçisi.**